# AZƏRBAYCAN RESPUBLİKASI
# DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI
## Q Ə R A R
## № 8

**Bakı şəhəri** **27 aprel 2022-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Camid Cavid oğlu Xəlilovun İmişli Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün 2022-ci il aprel ayının 11-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Xəlilov Camid Cavid oğlu İmişli Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2021-ci il dekabr ayının 27-də elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2022-ci il aprel ayının 11-də Dövlət Statistika Komitəsinin Həyat keyfiyyətinin statistikası şöbəsinin müdiri Yaşar Paşa, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Nicat İsayev və müstəqil ekspert Musa Cabbarovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Xəlilov Camid Cavid oğluna müsahibə komissiyasının üzvlərindən N.İsayev və M.Cabbarov 16 bal, Y.Paşa 14 bal vermiş və nəticədə iştirakçı 15,3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 12.04.2022-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Xəlilov Camid Cavid oğlunun 12 aprel 2022-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və İmişli Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün 2022-ci il aprel ayının 11-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.
3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**